# Heydər Əliyev İli - 2023

# Heydər Əliyev müasir dövlət idarəçiliyinin banisidir



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və "Azərbaycan" qəzetinin birgə təşkil etdiyi elmi konfrans

**"Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və "Azərbaycan" qəzetinin birgə təşkil etdiyi "Heydər Əliyev müasir dövlət idarəçiliyinin banisidir" mövzusunda elmi konfrans keçirilib. Elmi konfrans iştirakçıları öncə Ulu Öndərin DİA-dakı büstü önünə gül dəstələri qoyublar.**

*Konfransı giriş sözü ilə açan **Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan ƏLƏKBƏROV** müasir müstəqil dövlətimizin qurulmasında, möhkəmlənməsində, Azərbaycan dövləti və xalqı qarşısındakı müstəsna xidmətlərindən, Ulu Öndərin zəngin siyasi irsinin, dövlət idarəçilik təcrübəsinin əhəmiyyətindən danışıb:*

- Azərbaycan Respublikası son illərdə iqtisadi, sosial və humanitar inkişaf, həmçinin ölkənin təhlükəsizliyinin təmin edilməsi sahələrində öz tarixində ən yüksək nailiyyətlər qazanıb. Bu nailiyyətlər Azərbaycan Respublikasında tətbiq edilən innovativ dövlət idarəçilik texnologiyaları, uğurla həyata keçirilən insan inkişafı siyasəti, ardıcıl və məqsədyönlü islahatlar, dövlət qulluğu sistemi üçün yüksəksəviyyəli kadr potensialının formalaşdırılması və səfərbər olunmasının məntiqi nəticəsidir. Bütün bu proseslərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirilərək yeni səviyyəyə qaldırılmışdır. Bu il müasir Azərbaycan Respublikasının memarı, dövlət idarəçilik sahəsində fenomenal istedada malik olan, siyasi və iqtisadi uzaqgörənliklə seçilən və dünyamiqyaslı siyasətçilər arasında xüsusi yeri olan Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

→ 4-5



# Heydər Əliyev İli 2023

*Əvvəli 1-ci səh.*

# Heydər Əliyev müasir

## Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və

Bu tarixi hadisə ilə əlaqədar ölkə Prezidenti İlham Əliyev 29 sentyabr 2022-ci ildə xüsusi sərəncam imzalamış və həmin sənədlə 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir. Sərəncamda göstərilir ki, "Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".

Milli sərvətimiz olan Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin miqyasına uyğun olan uğurlar arasında ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilmiş 44 günlük şanlı Vətən müharibəsi, onun nəticəsində ölkənin ərazi bütövlüyünün bərpasının, bununla BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin həyata keçirilməsini göstərmək olar. Bu tarixi qələbənin qazanılmasında əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilmiş müasir ölkə quruculuğu istiqamətində uğurlu çalışmalar, innovativ dövlət idarəçiliyi sahəsində böyük bacarıqlar durur. Bu siyasətin həyata keçirilməsi nəticəsində ölkədə iqtisadi inkişafa nail olunmuş, sosial sahənin məqsədyönlü inkişafı təmin edilmiş, hərbi quruculuq istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Bunlarla yanaşı, Vətən müharibəsində qələbəni, ölkənin ərazi bütövlüyünün bərpasını təmin edən digər amillər arasında qlobal miqyasda reallaşdırılan çevik və uğurlu diplomatik fəaliyyət, dünyanın aparıcı televiziya kanallarına, qəzet və jurnallara verilən müsahibələrin çox böyük əhəmiyyəti olmuşdur. Bu fəaliyyətin əsası Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə qoyulmuş və Prezident İlham Əliyev tərəfindən böyük peşəkarlıqla həyata keçirilmişdir. Azərbaycan Respublikasında elmə əsaslanan və təcrübədən uğurla çıxan innovativ dövlət idarəçiliyində dünyada ilk dəfə tətbiq edilən yeni texnologiyalar ölkəni müasir inkişaf göstəricilərinə görə dünya liderləri sırasına çıxarmışdır. Bu fakt Davos Dünya İqtisadi Forumunun təsisçisi və əvəzsiz Prezidenti professor Klaus Şvabın dünya ölkələrinin inkişafının müqayisəli təhlilinə həsr olunmuş hesabatında da təsdiqini tapmışdır. Həcmi 667 səhifə olan bu hesabatda Azərbaycan Respublikası davamlı inklüziv inkişaf naminə uğurlu fəaliyyət göstərən və bu prosesdə ehtiyatları dünyada ən səmərəli idarə edən ölkə kimi təqdim olunmuşdur.

Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından 30 ildən bir qədər artıq vaxt keçib. Tarixi baxımdan qısa zaman kəsiyi olmasına baxmayaraq, göstərilən müddətdə ölkə müstəqil inkişafı əngəlləyən ciddi çağırışlarla üzləşdi. İlk növbədə müstəqilliyin ilk illərində idarəetmədə cinayət ilə müqayisə edilə bilən səriştəsizlik və məsuliyyətsizlik ölkənin müstəqilliyinin qorunması üçün ciddi çağırışlar törətdi. Digər tərəfdən Ermənistanın hərbi təcavüzü, ölkə ərazilərinin işğal altına düşməsi, qaçqın və məcburi köçkün ordusunun yaranması ölkənin ərazi bütövlüyü və siyasi stabillik üçün böyük risklər idi. Yalnız xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə gətirilməsi dövlətin üzləşdiyi risklərin aradan qaldırılmasını və sürətli inkişaf yoluna çıxmasını təmin etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsi, ölkənin ərazi bütövlüyünün bərpası həyata keçirilən dövlət quruculuğu siyasətinin nəticəsidir.

Müstəqilliyin bərpasının ilk onillikləri çətin şəraitdə keçsə də, ölkə bir sıra iqtisadi və sosial sahələrdə yüksək nəticələr əldə etmişdir. Davos İqtisadi Forumunun 2018-ci ildə, Dünya Bankının isə 2022-ci ildə dərc etdiyi hesabatlara əsasən, Azərbaycan Respublikası mövcud iqtisadi imkanlarını inklüziv inkişaf naminə dünyada ən səmərəli istifadə edən dövlətdir. Müqayisəli təhlillər göstərir ki, Azərbaycan Respublikasının bu üstünlüyü həm dünyanın 30 iqtisadi sahədə ən uğurlu ölkələri, həm də keçid iqtisadiyyatı qrupuna aid olan ölkələr arasında müşahidə olunur. Həmin mənbələrdə dərc olunmuş məlumatlara görə, Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf üzrə tutduğu yer ölkənin iqtisadi imkanlarına görə tutduğu yerdən 57 pillə yüksəkdir. Avropa İttifaqının bir çox üzvünün təmsil edildiyi keçid iqtisadiyyatına malik dövlətlər qrupunda isə ölkəmiz inklüziv inkişaf indeksinə görə 26-cı imkanla 3-cü yerdədir. Nisbətən az maddi imkanlarla iqtisadi və sosial inkişafda daha yüksək nailiyyətlərin əldə edilməsi yalnız resursların idarə edilməsində innovativ texnologiyaların istifadəsi, bu sahədə insan potensialının inkişafı şəraitində mümkündür. Azərbaycan Respublikasının dövlət idarəçiliyində yeni texnologiyaların tətbiqi prosesinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, ölkə Prezidenti İlham Əliyev tərəfindən isə yaradıcılıqla inkişaf etdirilmişdir. Bunun nəticəsidir ki, müasir Azərbaycan Respublikasının dövlət idarəçiliyində tətbiq edilən innovativ texnologiyalar ölkənin "Böyük yeddilik" (G7) ölkələri ilə müqayisədə davamlı inklüziv inkişaf naminə maddi ehtiyatların idarə edilməsində daha uğurlu olmasını nümayiş etdirir. İqtisadi, sosial, ekoloji, demoqrafik, humanitar və digər, davamlı inkişaf edən inklüziv cəmiyyət formalaşması üçün vacib olan, ümumiyyətlə, 12 fərqli parametrlə dəyərləndirilən inklüziv inkişaf indeksinin hər vahidinə adambaşına sərf edilən vəsait Azərbaycan Respublikasında "Böyük yeddilik" ölkələrindən dəfələrlə azdır. Beynəlxalq statistikaya görə, inklüziv inkişaf sahəsində eyni nəticənin əldə edilməsinə bizim ölkədə Fransa ilə müqayisədə 2,3, ABŞ ilə müqayisədə isə 3,5 dəfə az vəsait sərf edilir. Dövlət idarəçiliyində yüksək səmərə verən texnologiyaların tətbiqinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində yeni səviyyəyə yüksəlmişdir.

Təqdim olunmuş məlumatlar göstərir ki, Ulu Öndər Heydər Əliyevin neft strategiyası ölkənin iqtisadi və sosial inkişafına xidmət etməklə yanaşı, bu prosesin innovativliytini də təmin edib. Belə nəticələrin əldə edilməsində ölkə Prezidenti İlham Əliyevin 2003-cü ildə Cenevrədə keçirilən Dünya Sammitində elan etdiyi gələcəyin inkişaf konsepsiyası durur. Bu konsepsiyaya görə, karbohidratların ixracından əldə edilmiş gəlirlər ölkədə insan potensialının inkişafına, onun iqtisadiyyatda insan kapitalına çevrilməsi və bunun hesabına innovativ inkişafın təmin edilməsinə xərclənir. Hazırda iqtisadi və sosial sahədə əldə edilən yüksək nəticələr ölkənin inkişaf strategiyasının nə dərəcədə düzgün olmasından xəbər verir.

Ölkələrin inkişaf səviyyələrini dəyərləndirmək və müqayisəli təhlillər aparılması üçün müxtəlif göstəricilərdən istifadə edilir. Bu göstəricilərin arasında iqtisadi və sosial sahələri səciyyələndirən və hər birinin vəziyyətini ayrıca dəyərləndirən indikatorlar mövcuddur. Keçən əsrin son onilliyində ölkələrin tərəqqisini səciyyələndirən və bu prosesi dəyərləndirmək üçün yeni göstərici - İnsan İnkişafı İndeksi kimi indikatordan istifadə təklif edildi. Bu indikatorun üstünlüyü ondadır ki, ölkələrin inkişafı vahid bir göstərici ilə səciyyələnir və bu indikator eyni zamanda həm iqtisadi, həm də sosial sahədə vəziyyəti nümayiş etdirir.

Lakin insan inkişafı indeksi eyni zamanda iqtisadi vəziyyət və sosial durumdan məlumat daşısa da, onlar yalnız hazırkı vəziyyəti səciyyələndirir. Davamlı inkişafın vacib xüsusiyyəti olan, tətbiq edilən dövlət idarəçilik texnologiyalarının gələcək nəsillərə təsirlərinin qiymətləndirilməsi insan inkişafı indeksi vasitəsilə həyata keçirilə bilmir. Yeni göstərici inklüziv inkişaf indeksi kimi məlumdur. Dünya ölkələrinin bu sahədə durumunun dəyərləndirilməsi ilk dəfə 2018-ci ildə həyata keçirilmişdir. Təhlillər göstərir ki, Azərbaycan Respublikası müasir inkişafın bir sıra istiqamətlərində dünya liderləri sırasındadır. Bu mövqeyi ölkə tarixi baxımdan nisbətən qısa müddətdə və start vəziyyətdə olduqca mürəkkəb olan bir şəraitdə qazanmışdır. Ölkənin dünya liderləri sırasına daxil olması ilk növbədə Ulu Öndər Heydər Əliyevin şəxsi parlaq liderlik xüsusiyyətləri ilə əlaqədardır. Onun fenomenal lider olmasının



əsasında həm bu dahi şəxsin unikal təbii xüsusiyyətləri, həm də həyat boyu qazandığı bilik və bacarıqları dururdu. İki əsas mənbəyi olan liderlik xüsusiyyətlərinin bir təzahürü gələcək hadisə və prosesləri qabaqcadan görmək, bunların əsasında düzgün siyasi proqnozlar vermək və buna uyğun olaraq praktiki fəaliyyət həyata keçirməkdir.

Ulu Öndər Heydər Əliyevin davamlı inkişaf sahəsində həyata keçirdiyi innovativ təşəbbüs ölkə Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla davam etdirilmişdir. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci ilin may ayında imzalanmış sərəncamları əsasında dünyada ilk dəfə olaraq ali təhsildə yeni ixtisas - "davamlı inkişafın idarəedilməsi" bakalavriatura, magistratura və doktorantura səviyyələrində ixtisaslar nomenklaturasına daxil edilmişdir. Dünyanın ən müasir prioriteti olan inkişafın davamlılığı və cəmiyyətin inklüzivlik prinsipləri əsasında idarə edilməsini təmin edən fəaliyyət bu sahədə mütəxəssislərin olmasını zəruri edir. Gələcək dünya üçün bu inkişaf istiqamətinin prioritet olmasını nəzərə alaraq, davamlı inklüziv inkişaf sahəsində ölkədə ali təhsilli kadrların hazırlanmasına başlanıldı.

***"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV*** *qeyd etdi ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması anadan olmasının 100 ili tamam olan Ulu Öndərimizin əziz xatirəsinə ehtiramın ali nümunəsidir. "Heydər Əliyev İli" çərçivəsində keçirilən hər bir tədbir əbədiyaşar öndərimizin siyasi fəaliyyətinin hər bir mərhələsinə bir daha nəzər salınması, onun ideyalarının təbliği və gənc nəsillərə ötürülməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir:*

- Heydər Əliyev və Azərbaycan. Bu iki böyük adı, hər birimiz üçün milli dəyər olan bu ifadələri bir-birindən ayrılıqda təsəvvür etmək qeyri-mümkündür. Onlar sanki bir-birləri üçün yaranmışdılar. Heydər Əliyev Azərbaycanın simasında xalqa xidmət arzusunu reallaşdırmaq missiyasını gerçəkləşdirmək imkanı, geniş fəaliyyət meydanı tapmışdı. Azərbaycan isə sədaqətli övladının simasında qurucusunu, qoruyucusunu, onu daim sevən və ucaldan övladını kəşf etmişdi.

Maraqlı bir məqam da var: Nə qədər ki ikisi birlikdə olub, Azərbaycan inkişaf edib, yüksəlib, xalqın güzəranı yaxşılaşıb, arzuları gerçəkləşib. Onlar bircə dəfə ayrılıblar ki, ondan sonra da narahat günlərimiz başlayıb.

Heydər Əliyev birinci dəfə Azərbaycana rəhbər seçiləndə ölkəmiz keçmiş ittifaqın geridə qalmış respublikası idi. İqtisadiyyatımız, sənayemiz, elm və təhsilimiz, xalqın həyat şəraiti, hətta kənd təsərrüfatımız öz göstəricilərinə görə ittifaq miqyasında sonuncu yerlərdə qərar tutmuşdu. Məhz Heydər Əliyevin 1969-cu ildə ölkəmizə rəhbər seçilməsindən sonra başlanan kompleks iqtisadi islahatlar tezliklə Azərbaycanı ittifaqın qabaqcılları sırasına çıxardı. O illərdə iqtisadiyyatda, sənayedə, kənd təsərrüfatında baş verən artımlar həm də belə bir həqiqəti ortaya qoymuşdu ki, artıq Azərbaycana vətənini sevən, millətinə bağlı olan, eyni zamanda cəsarətli bir lider rəhbərlik edir.

Heydər Əliyev ikinci dəfə ölkə rəhbərliyinə xalqın çağırışı ilə ən ağır günlərdə gəldi. Bu o dövr idi ki, maymaq, qorxaq, naşı və təcrübəsizlər ölkəni fəlakət və parçalanmaq həddinə çatdırmışdılar. Dövlət aparatı iflic olmuş, ölkəni xaos və anarxiya bürümüş, iqtisadiyyatımız dağıdılmışdı. Xalqın ümidsiz vəziyyətə düşdüyü, sabaha inamını itirdiyi belə məqamda hakimiyyət sükanının arxasına keçən Heydər Əliyev insanların inamlarını bərpa etdi, ölmüş ümidləri yenidən cücərtdi. Həmin böhranlı günlərdə inana da bilməzdik ki, tezliklə Azərbaycanda tamamilə yeni dövr başlayacaq, bütün böhranlar başa çatacaq, respublikamız tənəzzüldən inkişafa doğru istiqamət alacaq. Lakin bunlar baş verdi və bu tarixi yaradan Ümummilli Liderimiz Heydər Əliyev oldu. Ona görə Ulu Öndər Heydər Əliyevin adı haqlı olaraq tariximizə müasir və müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi həkk olunub.

İstərdim Heydər Əliyevin böyük şəxsiyyət, müdrik siyasətçi kimi xarakterik, eyni zamanda onu xalqa sevdirən cəhətlərinə diqqət yetirim. Bilirsiniz, Ulu Öndər Heydər Əliyev Azərbaycanın ən böyük zəhmətkeşi kimi sevilirdi. Hamı onun kimi, onun qədər işləməyə çalışırdı. Ancaq bu, insanlara müəyyən zaman kəsiyində müyəssər olurdu. İlboyu və uzun illər boyu Ümummilli Liderimiz kimi gərgin, həm də səmərəli işləmək çətin idi. Sadəcə insanlar belə ciddi və dəqiqəsinədək hesablanmış fiziki və zehni əməyə tab gətirmirdilər. Amma bu nümunə var idi və hamı öz rəhbərinə bənzəməyə can atırdı. Yəqin ki, Heydər Əliyevin böyük fiziki və intellektual imkanları, zəngin mənəvi keyfiyyətləri olmasaydı, çoxlarına nəsib olmayan bir tale yaşamaq, böyük siyasətdən uzaqlaşdıqdan sonra hər şeyə yenidən başlamaq və hakimiyyət olimpinin zirvəsinə təzədən qalxmaq da qismət olmazdı. Ən uzunömürlü dövlət rəhbərlərindən sayılan Ulu Öndər Heydər Əliyev bu gün də bir çox qeyri-rəsmi dünya rekordunun sahibidir. Yəqin ki, Heydər Əliyev qədər rəsmi görüş keçirən, işgüzar, rəsmi və dostluq səfərlərinə gedən, müxtəlif sənəd və müqavilələrə, sərəncam, qanun və fərmanlara imza atan ikinci dövlət başçısı tapmaq çətindir. Heydər Əliyev jurnalistlərə ən çox müsahibə verən, yeni tikintilərin bünövrəsini qoyan, istifadəyə verilən obyektlərin qırmızı lentini kəsən rəhbərdir. Həm də bütün bunlara həmişə vaxt və imkan tapırdı.

Heydər Əliyev dünyada mövcud olan siyasi xadimlərin sırasında ən parlaq natiqlərdən sayılır. Ulu Öndərimiz istənilən mövzuda saatlarla sinədəftər danışmaq istedadına malik idi. Nitqi həmişə maraqlı və cəlbedici, tarixdən və müasir dövrdən götürülən misallar və faktlarla zəngin olurdu. Azərbaycan xalqı sevimli rəhbərinin qeyri-adi natiqlik bacarığından fəxarət duyurdu. Xarici dövlətlərə səfərləri zamanı həmin ölkələrin başçıları nitq və çıxışlarını üzündən oxuduqları halda, Heydər Əliyev birbaşa danışardı. Özü də nitqinin heç biri digərinə bənzəmirdi, təkrarçılığa qətiyyən yol vermirdi. Nitqlərin mahiyyətində dərin bilgi dururdu. Ulu Öndər qısa müddət ərzində hər hansı bir sahəni öyrənmək bacarığına malik idi. Azərbaycana rəhbər seçilənə qədər bircə sahədə işləmişdi. Buna qədər isə tarix və memarlıq ixtisası üzrə təhsil almışdı. Çoxsahəli ölkə iqtisadiyyatını öyrənmək və idarə etmək üçün ona uzun müddət lazım gəlmədi. Ümummilli Liderimiz neft sənayesini neftçilərdən, pambıqçılığı, üzümçülüyü və heyvandarlığı kənd təsərrüfatı işçilərindən, tikinti, sənaye, mədəniyyət və digər sahələri də həmin sahələrin əksər mütəxəssislərindən yaxşı bilirdi. Xüsusən də sahənin problemlərini və onun həlli yollarının incəliklərini öyrənməkdə mahir idi. Odur ki, nitqləri dolğun və məzmunlu, informasiya ilə zəngin və maraqlı olurdu. Onu dinləyənlər yeni nə isə öyrənə bilirdilər.

Ulu Öndər Heydər Əliyevi həm də mərdliyinə, kişi xüsusiyyətlərinə görə sevirdilər. Heydər Əliyev insanlara arxa durmağı, çörək verməyi bacarırdı. Minlərlə adam onun sayəsində ev-eşik, vəzifə və imkan sahibi olmuşdu. Doğrudur, Ümummilli Liderimiz müvəqqəti olaraq böyük siyasətdən uzaqlaşanda bəziləri ona nankorluq etdilər, əleyhinə işlədilər, barəsində yalan və böhtan danışdılar. Lakin Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdandan sonra peşmançılıq çəkənləri bağışladı. Və heç kəsin dönüklüyünü ictimai şəkildə başına qaxaraq utandırmadı. O həm də böyük səxavət sahibi idi. Müraciət edənlərin heç birini boş qaytarmazdı. Elə adam olmuşdu ki, ondan dəfələrlə ev almışdı. Heydər Əliyev "bir dəfə almısan" sözünü dilinə gətirməmişdi. İnsanları əfv etməyi də bacarırdı. Əməlindən peşman olanlar, səhvlərini etiraf edənlər bu böyük qəlb sahibi tərəfindən bağışlanırdı. Ulu Öndər jurnalistlərə müsahibəsində "Ən çox sevdiyiniz insani keyfiyyət?" sualına cavabında "Mərdlik" söyləmişdi. Bu, Heydər Əliyevin təkcə sevdiyi yox, əslində, özünə xas xüsusiyyət idi.

Azərbaycanın dövlət müstəqilliyi elan edildikdən sonra iki prezidenti olmuşdu. Lakin hər iki prezident təzyiqlərə davam gətirə bilməmiş, canlarının hayına qalaraq postlarını atıb qaçmışdılar. Analoji situasiya Ulu Öndərin rəhbərliyi dövründə - 4 oktyabr 1994-cü il və 13-17 mart 1995-ci ildə də baş verdi. Heydər Əliyev heç nədən çəkinmədən, real ölüm təhlükəsindən belə qorxmadan sonadək vəzifəsini yerinə yetirdi, ölkəyə rəhbərlik etdi. Onun bu mərdliyini və cəsarətini Azərbaycan xalqı yüksək qiymətləndirdi. Gecəyarı uşaqdan-böyüyədək hamı Prezident sarayının qarşısına toplaşaraq sevimli rəhbərini sonadək müdafiə edib dəstəklədiyini bildirdi.

Əslində, Heydər Əliyevi bütün Azərbaycan xalqı, milliyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı sevirdi. Çünki yalnız Ulu Öndərin rəhbərliyi ilə müstəqilliyimiz əbədi və dönməz xarakter aldı. Xalqın sevgi və inamına arxalanan Ümummilli Lider Heydər Əliyev əvvəldə qeyd etdiyim kimi, Azərbaycanı dərin böhranın pəncəsindən qurtararaq sürətli və davamlı inkişaf yoluna çıxardı.

Ulu Öndərin dövlətimiz və xalqımız qarşısındakı xidmətləri barədə danışarkən onlardan ikisini ayrıca qeyd etmək lazımdır. Bunlardan biri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursdur. Aradan ötən illər, Azərbaycanın keçdiyi inkişaf yolu göstərir ki, Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun alternativi yoxdur.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onda idi ki, o, dövlət quruculuğu prosesinin ardıcıllığını təmin edəcək əsasları da formalaşdırdı. Ulu Öndər möhtərəm İlham Əliyevin şəxsində Azərbaycanın müstəqilliyini, ölkəmizin yüksəlişinin daimiliyini, dönməzliyini təmin edəcək siyasi varisini də müəyyənləşdirdi. Ötən 20 ildə Azərbaycanın hər bir uğuru göstərir ki, Prezident İlham Əliyev Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısıdır. Bu kurs Azərbaycan xalqı üçün ən əsas və hər şey deməkdir. Məhz İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edərək ən ağrılı problemimizi yoluna qoyduq. Məhz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Cənubi Qafqazın liderinə, dünyada söz sahibi olan dövlətə çevrilib. Məhz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır.

2003-cü ildə Ulu Öndər Heydər Əliyev xalqımıza müraciətində deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək".

Bəli, Ulu Öndərin ruhu bu gün rahatdır. Çünki Prezident İlham Əliyev dahi öndərimizin bütün arzularını çin etdi. Torpaqlarımızı azad etməklə İlham Əliyev həm də ata vəsiyyətini layiqincə yerinə yetirdi.

***Dövlət İdarəçilik Akademiyasının birinci prorektoru, fəlsəfə elmləri doktoru, professor Əlikram ABDULLAYEV*** *qeyd etdi ki, Azərbaycan 1991-ci il oktyabrın 18-də Müstəqillik Aktı qəbul etməklə keçmişin totalitar idarəçilik sisteminin sökülməsi, vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, yeni tipli dövlət-vətəndaş münasibətlərinin formalaşmasına yönəlmiş idarəçilik sisteminin qurulması prosesinə başlanmalı idi. Lakin belə olmadı:*

- Xalqımızın öz dövlət müstəqilliyini bərpa etməsini "həzm edə" bilməyən bəzi xarici dövlətlərin düşmən mövqe tutması, ərazilərimizə və sərvətlərimizə susamış bədnam qonşunun hərbi müdaxiləsi, ölkə daxilindəki hərc-mərclik, orduda, hüquq-mühafizə orqanlarındakı özbaşınalıq, iqtisadi taqətsizlik, mənəvi-ideoloji vakuum bu məsələnin həllini qeyri-müəyyən müddətə - gələcəyə saxlamağı qaçılmaz etdi. Yalnız uzun illər respublikaya başçılıq etmiş, Sovet İttifaqı kimi qüdrətli bir dövlətin hakimiyyət olimpində ən yüsək mövqelərdən birində uğurla çalışmış görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıtmasından sonra cəbhədə atəşkəsə, ölkə daxilində vətəndaş sülhünə və siyasi sabitliyə, "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla, müstəqil dövlətin ilk Konstitusiyasını qəbul etməklə dövlət idarəçiliyi sahəsində genişmiqyaslı islahatlar proqramının həyata keçirilməsinə başlamaq mümkünləşdi.

İslahatlar prosesinə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il dekabrın 29-da imzaladığı fərmanla start verildi. "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında" adlanan həmin fərmanda Azərbaycan cəmiyyətinin demokratikləşməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində köklü islahatlar aparılmasının prinsipial əhəmiyyət kəsb etdiyi vurğulanır, Ulu Öndərin özünün rəhbərliyi ilə xüsusi dövlət komissiyası təşkil edildi və onun tərkibində 4 işçi qrupu yaradıldı. Həmin qrupların bilavasitə məşğul olacaqları istiqamətlər aşağıdakı kimi müəyyən edildi: - dövlət xərclərinin idarə olunması sisteminin yenidən qurulması; - audit sisteminin islahatı; - dövlət idarəetmə sisteminin islahatı; - hüquq və məhkəmə sisteminin islahatı. İslahatların sonrakı gedişinin göstərdiyi kimi, bu istiqamətlərin hər birinin çərçivəsində onlarca digər islahatlar həyata keçirilməli idi.

Gözləmək olardı ki, islahatlar prosesinə start verən ilk fərman isə strateji əhəmiyyətli siyasi, sosial-iqtisadi, hərbi və s. sahələrdən birinə həsr ediləcək. Lakin belə olmadı. Haqqında bəhs olunan fərmandan sonra artıq yeni ildə imzalanan ilk fərman keçmiş Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun bazasında Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təsis edilməsinə dair 3 yanvar 1999-cu il tarixli, 60 nömrəli fərman oldu.

Bu təsadüf idimi? Əlbəttə ki, yox. 1999-cu ildə ölkə Prezidenti onlarca, bəlkə də daha çox fərman imzalamışdı. Elə yanvar ayının özündə imzalanmış fərmanlardan hər biri yeni ilin ilk fərmanı ola bilərdi. Bu bir seçim idi, özü də strateq seçimi.

XX əsrin fikir nəhənglərindən olan Erik Frommun belə bir müddəası var ki, gələcəyin inkişaf imkanları insanın ixtiyarında nələrin olmasından daha çox onun özünün kim olmasından, ixtiyarında olanlarla onun nələri edə biləcəyindən asılıdır. Bu kəlam Heydər Əliyevin dövlət idarəçiliyinin islahatları strategiyasında bu sahə üçün kadr hazırlığı məsələsinin həlledici amil kimi seçilməsinin dərinliyinə varmağa imkan verir. Bu gün idarəetmə sahəsində, xüsusilə də dövlət idarəçilyi sahəsində müasir biliklərə, kreativ düşüncəyə, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik kadrlar olmadan heç bir islahat həyata keçirilə bilməz. Dövlətin həyata keçirmək istədiyi proqramların taleyi, bütövlükdə dövlətin özünün taleyi son nəticədə dövlət idarəçiliyində çalışan insanların peşəkarlığı, mənəvi-əxlaqi potensialından asılıdır. Vətəndaş da dövlət idarəçiliyinin səviyyəsi və keyfiyyətini birbaşa dövlət orqanının, dövlətin özünün keyfiyyəti kimi qəbul edir. Bəzi ekspertlər hesab edirlər ki, peşəkar olmayan, səriştəsiz, mənəviyyatsız kadrlar dövlət üçün ən ciddi təhdiddir və buna görə də kadr təhlükəsizliyinin milli təhlükəsizlik amili kimi qəbul olunmasını təklif edirlər.

Beləliklə, "Azərbaycanın dünyaya bir günəş kimi parlamasını" təmin etməli olan dövlət idarəçiliyi islahatları strategiyasının "universal açarı" kimi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası seçilmiş oldu. Onun təsis edilməsinə dair fərman akademiyaya dövlət idarəçiliyi və icra hakimiyyəti orqanları üçün mütəxəssislər hazırlanması və onların əlavə təhsili sahəsində aparıcı metodiki tədris, elm və analitik informasiya mərkəzi olmaq kimi yüksək funksiyalar, həm də dünya praktikasında mövcud olan ən yüksək status - ölkə Prezidenti yanında ali təhsil mütəxəssisi statusu verirdi. Kadr siyasətinə dair təkliflərin işlənib hazırlanması, dövlət idarəçiliyinin inkişafı və onun hüquqi təminatına dair tövsiyələrin hazırlanması, dövlət idarəçiliyinin analitik informasiya təminatı, dövlət vəzifələrində olan dövlət qulluqçularının, habelə onları əvəz etmək üçün ehtiyat kadrların hazırlanması və əlavə təhsilin təmin edilməsi akademiyanın fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilirdi.

Artıq 24-cü ildir ki, akademiyanın kollektivi Ulu Öndərin imzası ilə təsdiq edilmiş Nizamnamədən irəli gələn vəzifələri uğurla yerinə yetirmək uğrunda səylə çalışır. Bakalavr, magistr hazırlığı həyata keçirmək, doktorantura və dissertantura yolu ilə yüksəkixtisaslı kadrlar yetişdirmək, dövlət qulluqçusuna təlimlər keçmək vasitəsilə dövlət idarəçiliyi sisteminə öz töhfəsini verir.



Heydər Əliyev İli 2023

# dövlət idarəçiliyinin banisidir

## "Azərbaycan" qəzetinin birgə təşkil etdiyi elmi konfrans

Bu illər ərzində akademiya respublikamızın ən dinamik inkişaf nümunələri göstərən bir ölkəyə çevrilməsinə nail olmuş unikal dövlət idarəçiliyi sisteminə inteqrasiya olunmuş, öz elmi araşdırmaları, tədris-metodiki işi, mənəvi ab-havası ilə cəmiyyətin rəğbətini qazana bilmiş, istedadlı gənclərimizin can atdığı bir təhsil ocağına çevrilmişdir, bir sıra sahələrdə isə çox ciddi əhəmiyyət kəsb edən ölkə və dünya miqyaslı "ilk"lərə imza atmışdır. Bu münasibətlə təkcə dunyada ilk dəfə davamlı, inkluziv inkişaf sahəsində akademiyada aparılan tədqiqatları və ali təhsilin bütün səviyyələrini əhatə edən təhsilin təşkilini xatırlamaq kifayət edərdi.

Akademiyanın inkişafında Ulu Öndərin layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı məsələlər haqqında" 11 dekabr 2014-cı il və 22 sentyabr 2017-ci il tarixli fərmanlarının xüsusi rolu olmuşdur. Bu mühüm sənədlər akademiyanın inkişafı üçün yeni imkanlar açır və eyni zamanda onun məsuliyyətini qat-qat artırır. Kollektivimiz bu etimada cavab olaraq akademiyanı Ulu Öndərin parlaq xatirəsinə möhtəşəm bir abidəyə çevirmək əzmi ilə çalışır.

***Milli Məclisin deputatı, siyasi elmlər üzrə fəlsəfə doktoru, Dövlət İdarəçilik Akademiyasının dosenti Aydın Mirzəzadə** çıxışında qeyd etdi ki, Heydər Əliyevin fəaliyyətində müasirləşmə həmişə əsas prinsiplərdən biri olmuşdur. Bu fəaliyyət onun həm ayrı-ayrı sahələrə rəhbərlik etdiyi zamanlarda, həm də ümumcəmiyyət məsələlərində özünü bariz göstərmişdir. Müasirlik onun üçün yeni vətəndaşın yetişməsi, Azərbaycan cəmiyyətinin layiq olduğu yüksək qiymətlərə çatması demək idi:*

- Cəmiyyətin müasirləşməsi - geniş mənada müxtəlif yeniliklər və təkmilləşmələrlə cəmiyyətin sosial-iqtisadi, siyasi və mədəni-mənəviyyat əsaslarının dərindən yenilənməsidir. Dar mənada isə cəmiyyətin müasirləşməsi sənaye çevrilişi ilə aqrar-sənaye cəmiyyətindən sənaye-aqrar cəmiyyətinə keçid, milli bazarın yaranması, buraxılan məhsulun eksport keyfiyyətlərinin güclənməsi, günün tələblərinə cavab verən liberal-demokratik siyasi-hüquqi sistemin yaradılması deməkdir.

Müasirləşmə texnoloji nəticəsinə nail omaq üçün ilk növbədə ictimai münasibətlərin yenilənməsi tələb olunur. Azərbaycan cəmiyyəti həmişə yeni fikrə, inkişafa dəstək olan fəaliyyətə açıq olub və nəticələrdə özünü göstərib. Ancaq uzun müddət ərazimizin müstəqil olmaması, digər dövlətlərin tərkibində olması inkişafımıza mənfi təsir edən faktorlardan olub.

Heydər Əliyev Azərbaycan cəmiyyətinin yetirməsi olaraq onun bacarıq və imkanlarına, həmçinin problemlərinin dərinliyinə yaxşı bələd idi. Həmçinin onun analitik təfəkkürə malik olması, daim öz üzərində işləməsi və dünyada inkişafla bağlı məsələlərdən məlumatlı olması onun imkanlarını artırırdı.

Dövlət təhlükəsizlik orqanlarında işləyərkən o, özünü həm bacarıqlı işçi, həm vətənpərvər bir insan kimi göstərdi. İlk növbədə orqanlara azərbaycanlı gənclərin işə götürülməsi üçün bütün imkanlardan istifadə etdi. Məhz bu fəaliyyətin nəticəsində 1970-ci ildə təhlükəsizlik orqanlarında işləyənlərin 80 faizi azərbaycanlılardan ibarət idi. Hansı ki 1940-cı ildə həmin rəqəm 20 faiz təşkil edirdi.

Heydər Əliyevin uzaqgörən fəaliyyəti nəticəsində təhlükəsizlik orqanlarına işə cəlb edilən azərbaycanlı gənclərin özləri sonradan Azərbaycan xalqının maraqlarının qorunmasında və cəmiyyətin müasirləşməsində böyük rol oynadılar.

Ulu Öndərin gərgin fəaliyyəti ilə təhlükəsizlik orqanları cəmiyyəti cəzalandıran orqanlardan cəmiyyəti qoruyan orqanlara çevrildilər. Məhz bu səbəbdən ötən əsrin 60-80-ci illərində müstəqillik uğrunda mübarizə aparan Azərbaycan ziyalıları "dissident" ittihamı ilə mühakimə edilmədilər, əsərlərinə qadağalar tətbiq edilmədi, universitetlərdə sərbəst fəaliyyət göstərə bildilər. Heydər Əliyevin respublika Dövlət Təhlükəsizlik Komitəsinə sədr təyin edilməyi ilə ziyalılara qayğı və cəmiyyətdə olan problemlərin respublika və ittifaq rəhbərliyinə çatdırılması mexanizmi daha da təkmilləşdirildi.

Heydər Əliyevin məsələlərin həllinə yaradıcılıqla yanaşması onun 1969-cu ildə Azərbaycan SSR-ə rəhbər seçilməsi ilə nəticələndi. Bu ali vəzifə dahi Azərbaycan oğluna respublikanın müasirləşdirilməsi, ziyalı potensialının nüfuzunun gücləndirilməsi, insanların sosial problemlərinin daha yaxşı həll edilməsi istiqamətində fəaliyyət göstərməsinə imkan verdi.

Onun 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi regionun sosial-iqtisadi inkişafı, milli mədəniyyətinin yüksəlişi və milli düşüncə tərzinin möhkəmlənməsi ilə nəticələndi. 13 ildə Azərbaycanda 6 yeni universitet yaradıldı, 600-dən çox orta məktəb tikildi, çoxsaylı mədəniyyət ocaqları istifadəyə verildi. Azərbaycan mədəniyyət və incəsənətinin dəyərli nümayəndələrinin yaradıcılıqları SSRİ və dünya səviyyəsində tanıdılmağa, görkəmli şair və yazıçılarının əsərləri Azərbaycandan kənarda dərc edilməyə başlandı. Məşhur Azərbaycan rəssamı Tahir Salahovun 1974-cü ildə SSRİ Rəssamlar İttifaqının birinci katibi seçilməsi Azərbaycan incəsənətinə verilən yüksək qiymət idi. Bu uğurun qazanılmasında Ulu Öndərin böyük zəhməti var idi.

Hər il minlərlə Azərbaycan gənci respublikanın ehtiyacı olan ixtisaslara yiyələnmək üçün SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməyə başlanıldı. Əgər 1969-cu ildə, Heydər Əliyev hakimiyyətə gələnə qədər respublikadan kənara 13 nəfər gənc göndərilmişdisə, bu rəqəm ildən-ilə artırılaraq 1980-ci ildə iki min nəfərə çatdırılmışdı.

1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey açıldı. Bu, minlərlə azərbaycanlı gənci ali hərbi məktəblərə yönləndirməyə, zabit peşəsinə yiyələnməyə imkan verdi. Bu gənclər sovet ordusunda Azərbaycan xalqını layiqincə təmsil etdilər və gələcəkdə müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin əsasını təşkil etdilər.

Heydər Əliyevin 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası rəhbərliyinə seçilməsi, 1982-ci ildə isə SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsinə təyin edilməsi onun rəhbərlik qabiliyyətinə, yeniliklərin uğurlu tətbiqi təcrübəsinə verilən yüksək qiymət idi. Eyni zamanda bu, türk bacarığına, Şərq düşüncəsinə verilən yüksək dəyər də hesab edilə bilər. Heydər Əliyevin Moskvada yüksək vəzifədə fəaliyyəti sovet idarəçiləri dairələrində "Heydər Əliyev idarəçilik dəstxəti" ifadəsinin yaranmasına səbəb oldu və indi də o, öyrənilən və nümunə götürülən təcrübə hesab edilir.

Heydər Əliyevin yenilik və müasirlik bacarığı onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, sonra isə layiq olduğu və cəmiyyətin təkidlə dəvət etdiyi müstəqil Azərbaycan Respublikası rəhbərliyində fəaliyyətində də özünü müsbət tərəfdən göstərə bildi.

Heydər Əliyev tarixə Naxçıvan kimi kiçik və əsas ərazidən kənar düşmüş bölgəni Ermənistan işğalından qoruyan, müstəqil Azərbaycan dövlətinin bir siyasi-iqtisadi sistemdən digərinə az ağırısız keçidini təmin edən bir lider kimi düşdü. Onun fəaliyyəti Azərbaycanı müstəqilliyini itirməkdən, digər dövlətlərin təsiri altına düşməkdən, inkişaf yolunu tapmaqda çətinlik çəkməkdən xilas etdi. Heydər Əliyev sayca az bir xalqın nümayəndəsinin dünyaya nümunə olacaq bir cəmiyyət yarada bilməsinin nümunəsini ortaya qoydu.

O nümunə ki bu gün onu Azərbaycan Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Heydər Əliyev siyasi kursu ilə gedən Azərbaycan dünya birliyində nüfuzlu bir dövlət imicini qazanıb və özünün daxili və xarici siyasətini milli maraqlarına uyğun olaraq müstəqil surətdə uğurla həyata keçirir.



***Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Ziyafət HƏBİBOVA** çıxışında vurğuladı ki, Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi fəaliyyətini təhlil edərkən öncə "Əliyev fenomeninin sirri nədədir?" sualını cavablandırmaq lazım gəlir. Onun ən mühüm özəlliyi insanların ehtiyaclarını anlayan və xalqın layiqli həyat yaşaması üçün ağır məsuliyyəti yüklənmiş həqiqi dövlət adamı olmasıdır. Azərbaycan xalqının ən böyük şansı Heydər Əliyevin siyasi üfüqdə tam zamanında parlamasındadır:*

- Heydər Əliyev respublikaya rəhbərlik etməyə başlayan gündən ölkədə köklü islahatlara start verildi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. O, dəqiq bilirdi ki, bəşəriyyət tarixinin yeni mərhələsinə uyğunlaşmaq üçün ölkənin tamamilə dəyişməsi zəruridir.

Ulu Öndər şəxsiyyəti o qədər çoxşaxəlidir ki, bu, birmənalı qiymətləndirilə bilməz. Əksinə olsaydı, müasir nəsillər Heydər Əliyev fenomenini öyrənməyə ehtiyac duymazdılar. Öz mənəvi inkişafı və digər insani keyfiyyətləri sayəsində Ulu Öndər zamanın fövqündə dayanır və baş verəcəkləri öncədən hesablaya bilirdi. Əslində, Heydər Əliyevin siyasi liderlik modeli Azərbaycan Respublikasının sərhədlərini aşaraq müasir qlobal lider tipinin formalaşmasına yol açıb. Obrazlı desək, Ulu Öndər əsrlər və qitələr miqyasında düşünürdü. Heydər Əliyev hələ illər öncə bu gün XXI əsrin prioriteti kimi müəyyənləşdirilən "Davamlı inkişaf məqsədləri"ndə yer alan hədəfləri coğrafi baxımdan kiçik Azərbaycan miqyasında gündəmə gətirmişdi. Belə qlobal düşüncə tərzi Ulu Öndərin intellektual gücü və liderlik potensialının ən bariz təzahürüdür. Və bunun sayəsində Heydər Əliyev böyük beynəlxalq nüfuza və reytinqə malik idi. O, siyasi filosof, əqli və intellektual novator cəsarətini özündə birləşdirən müasir qlobal lider idi.

Heydər Əliyev bacarıqlı idarəçi kimi təkcə gələcəyi görməklə kifayətlənməyib, prioritet məqsədlərə çatmaq üçün əməli tədbirlər gerçəkləşdirirdi. O, fövqəladə bacarığı sayəsində siyasi prosesləri dərhal konstruktiv dəyişikliklər məcrasına yönəldə bilirdi. Təsadüfi deyil ki, onun adı siyasi brendə, qəbul etdiyi strateji qərarların keyfiyyət nişanına çevrilib. O, cəsarətli novator idi. Onun təşəbbüslərinin diapazonu olduqca genişdir və Heydər Əliyev yeni qlobal imkanları aşkarlayıb onlardan faydalanmaqla modernləşmənin öncülü rolunda çıxış edirdi. Onun ideyalarının bir çoxu zamanı qabaqlayırdı. Heydər Əliyev Azərbaycandan kənarda da çoxları üçün etimadın qarantı idi. O, Qərblə də, Şərqlə də eyni məcrada dialoq qururdu və "dürüst siyasi düha" imici qazana bilmişdi. Müdrik dövlət adamı kimi Heydər Əliyev təhsilli nəsli ölkənin gələcəyi hesab edirdi. O, öz komandasına güclü, enerjili idarəçiləri cəlb etməkdən çəkinmirdi. Onun ən böyük uğuru, dövlət başçısı kimi uzaqgörənliyi özünə layiqli davamçı, Azərbaycana yeni təfəkkürə malik lider və gələcəyi proqnozlaşdıran, yönləndirən əsl rəhbər yetişdirə bilməsindədir.

Xarizmatik şəxsiyyət olan Heydər Əliyev həmçinin nadir inandırma qabiliyyətinə malik idi. 1990-cı illərdə yüksək qeyri-müəyyənlik və siyasi risk şəraitində Azərbaycan lideri gələcəyin aşkar obrazını yarada və bu gələcəyin konturlarını cıza bilmişdi. Dünya miqyaslı siyasətçi həm də dünyanın vətəndaşı sayılırdı. O, qlobal dünya ilə ayaqlaşmaq zərurətini yaxşı dərk edirdi, ancaq Azərbaycanın dünyaya bərabərhüquqlu üzv kimi inteqrasiyasına üstünlük verirdi. Ulu Öndərin liderlik modeli Azərbaycana uğurlu dövlət statusu qazanmaq və beynəlxalq siyasətin bərabərhüquqlu aktoru olmaq şansı qazandırdı.

Məhz Ümummilli Liderin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan demokratik prinsiplərə əsaslanan dövlət quruculuğu sahəsində qətiyyətli addımlar atdı. Ulu Öndər orta statistik azərbaycanlını "cəngəllik" qanunlarına dayanaraq yaşamaq aqibətindən xilas etdi, sosium daxili mənəviyyat aşınmasının qarşısını aldı, saxta liderlərin siyasi anatomiyalarını, zərərli "siyasi layihələri"nin iflasını səciyyələndirən amilləri ortaya qoydu. Azərbaycan kütləvi inamsızlıq, permanent sosial kataklizmlər dönəmini məhz onun sayəsində adlaya bildi. Bir sözlə, Ulu Öndər Azərbaycanın uğur strategiyasının konturlarını cızdı. Azərbaycanın sərhədləri daxilində bütün yeni mədəni və intellektual dəyərlər üçün açıq, yeni səviyyədə bir toplumun formalaşmasına müvəffəq oldu. Azərbaycançılığı həmin toplumun həyat tərzində, əxlaqında əsas ideyaya çevirdi.

Heydər Əliyevin dövlət idarəçiliyindəki zəngin təcrübəsi və siyasi uzaqgörənliyi müstəqillik yoluna qədəm qoymuş ölkəmizin mövqelərini möhkəmləndirdi. Böyük tarixi şəxsiyyət, məşhur siyasətçi, mahir diplomat və dövlət xadimi Azərbaycanın müstəqilliyinin qorunub-saxlanılması və möhkəmləndirilməsi, ölkəmizi inkişaf etmiş dövlətlər cərgəsinə qoşmaq üçün bütün imkanlardan istifadə etdi. Azərbaycançılıq ideyasının yüksəldilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və daha da inkişafı Ulu Öndərin xüsusi diqqət yetirdiyi sahələrdən idi.

Hazırda Ulu Öndərin müdrik siyasi kursu onun ən layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla, yaradıcılıqla davam etdirilir. Böyük sürətlə yeniləşən Bakı şəhəri və regionlarımız, xüsusi templə dəyişən və inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr və digər uğurlarımız məhz Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir.

XXI əsrdə də Azərbaycanın inkişaf kursu Heydər Əliyevin ölkəmizi dünyada tanıdan, onu daha aydın sabahlara aparan, Vətənə, xalqa xidmət kursunun davamıdır. Azərbaycanı gələcəyə aparan, müasir tarixin liderləri sırasına çıxaran inkişaf konsepsiyasında müasir dövrümüzün əsas çağırışlarından biri məhz insan inkişafı istiqamətindədir: artıq ölkədə "bilik iqtisadiyyatına" keçidin əsası qoyulub, bunun üçün həlledici olan insan potensialının adekvat inkişafı zamanında ön plana çəkilib. Bu isə iqtisadi modelin formalaşdırılmasında müvafiq tələblər irəli sürməklə bərabər, təhsil sisteminin də kökündən dəyişdirilməsinə, əlavə təhsil, həyat boyu təhsil kimi komponentlərin əhəmiyyətinin artırılmasına gətirib çıxarıb, eyni zamanda əsas missiyası yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyətini yüksəldib.

*Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi hər iki dövrdə Azərbaycanın milli maraqlarını hər zaman uca tutduğunu deyən **Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, professor, siyasi elmlər doktoru Elçin ƏHMƏDOV** qeyd etdi ki, Ulu Öndərin hakimiyyətə gəlişi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı:*

- 1969-1982-ci illər Azərbaycanın ictimai-siyasi, o cümlədən sosial-iqtisadi və mədəni həyatında milli intibah dövrü kimi dəyərləndirilir. Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə respublikanın iqtisadi inkişafının konsepsiyası hazırlanmış, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə kompleks tədbirlər həyata keçirilmişdir. Bununla yanaşı, Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk dövrdə elm, təhsil və mədəniyyətin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində görülən işlər milli ruhun oyanmasına, azərbaycançılıq məfkurəsinin zənginləşməsinə güclü təsir göstərmiş və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı zəmin hazırlamışdır.

Sovet dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zamanda Qarabağa çox böyük diqqət və qayğı göstərilmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdır. Həmin illərdə erməni millətçiləri imkan düşdükcə Azərbaycan torpaqlarına əsassız iddialar irəli sürürdülər. Ancaq Heydər Əliyev Qarabağın tarixini, coğrafiyasını, iqtisadiyyatını, orada yaşayanların düşüncələrini gözəl bilirdi. Hələ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısı dəfələrlə alınmış, onların fitnəkar niyyətlərinə qarşı mübarizəni daha da gücləndirmiş və bu istiqamətdə həyata keçirilən tədbirlərə şəxsən nəzarət etmişdir.

Ümummilli Lider Heydər Əliyev 1967-ci il iyun ayının 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Axundova məktubunda yazırdı ki, iyun ayının 23-dən 24-nə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 8 x 9 sm. ölçüdə 300 vərəqə yayılmışdır. Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar. Həmin ildə təkcə Dağlıq Qarabağda 1200-dən artıq belə vərəqə hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlanılmışdı.

Heydər Əliyev Şuşada hələ 1967-ci ildə olmuşdur. Həmin ilin əvvəllərində erməni millətçiləri tərəfindən əvvəlcədən hazırlanan plana əsasən, Dağlıq Qarabağda milliyyətcə erməni olan şəxs məqsədyönlü şəkildə öz qohumu tərəfindən qətlə yetirilmişdi. Planın ikinci mərhələsinə uyğun olaraq, xüsusi erməni təhrikçilərinin rəhbərliyi altında kütlə bu ölüm hadisəsi ilə bağlı məhkəmə iclasının keçirildiyi Xankəndidə yay parkında şübhəli şəxs kimi həmin prosesdə dindirilən 3 azərbaycanlını (Ərşad, Ələmşah və Zöhrab Məmmədovlar) zorla mühafizəçilərin əlindən alıb xüsusi amansızlıqla öldürmüşdülər. Təqsirləndirilən, lakin sonradan bəraət almış digər azərbaycanlı isə dustaq maşını ilə birlikdə yandırılmışdı. Burada əsas məqsəd hadisələri gərginləşdirib milli zəmində qarşıdurma törətmək, nəticədə azərbaycanlıların bütün Qarabağ ərazisindən köçürülməsini və ərazinin Ermənistana birləşdirilməsinin təməlini qoymaq idi.

Lakin Azərbaycan təhlükəsizlik orqanlarının, xüsusilə Heydər Əliyevin çevik müdaxiləsi nəticəsində bu hadisələrin qarşısı qısa müddətdə alınmışdı. İşin istintaqını Heydər Əliyev şəxsən öz nəzarətinə götürmüşdü. Həmin məsələni dərindən araşdırmaq üçün Xankəndiyə getmiş, cinayətkarlar haqqında istintaq işi açılmış və onlar layiqli cəzalarını almışdılar. O vaxt Heydər Əliyev 15 gün Qarabağda olmuş, eləcə də Şuşaya getmişdi. Şuşada olarkən 1905-1906, 1918-1920-ci illərdə ermənilərin təcavüzü nəticəsində dağıdılmış və yandırılmış evlərin hələ də bərpa edilmədiyini görmüşdü. O, Şuşa şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlmiş və Bakıya qayıtdıqdan sonra şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə mülahizələrini Azərbaycan rəhbərlərinə söyləmişdi.

Hələ Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Azərbaycanla sərhəd olan bəzi əraziləri ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri və alimləri hətta XX əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələrini ortaya çıxarmışdılar. Ərazi məsələsinə dair danışıqlar artıq müzakirə obyektinə çevrilmişdi. 1967-ci ildə Ermənistan SSR-in millətçi dairələri Azərbaycan SSR-in daxili işlərinə qarışaraq DQMV-nin azərbaycanlı əhalinin yaşadığı məntəqələrinin inkişafı üçün ayrılan vəsaitin bölünüb təsdiq olunmasına hər vəchlə mane olmağa çalışırdılar. Mərkəzi SSRİ hökumətinin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də Ermənistan SSR-lə sərhəd rayonların ərazilərindən 2 min hektardan çox torpağın Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul etdiyi qərarı təsdiq etdi.

Ümummilli Lider Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan SSR-in rəhbəri seçilən kimi bu məsələni ön plana çəkdi və bu qərarın icrasını dayandırdı. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev nə qədər təhlükəli olsa da, təzyiqləri rədd edərək prinsipial mövqe göstərdi, erməni millətçilərinin qarşısını qətiyyətlə aldı. Moskvadakı bəzi qüvvələrin və Ermənistan rəhbərlərinin cəhdlərinə baxmayaraq, Heydər Əliyev həmin qərarın həyata keçirilməsinə imkan vermədi. Lakin ermənilər öz çirkin niyyətlərindən əl çəkmirdilər.

1970-ci illərdə də ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu istəklərinin də qarşısı qətiyyətlə alınmışdı. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edilərkən Ermənistan SSR rəhbərliyi erməni millətçilərinin təhriki ilə yenidən Azərbaycan SSR-in DQMV-nin ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi ilə bağlı SSRİ mərkəzi hökumətinə müraciət etmişdi. 1977-ci il noyabrın 23-də keçmiş SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclasında Ermənistan SSR rəhbərliyinin təkidi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi müzakirə olunmuş və bununla bağlı təklif irəli sürülmüşdü. Məsələdən xəbər tutan Heydər Əliyev ermənilərin bu cəhdlərinin qarşısını almaq üçün qəti addımlar atmışdır. Bu məqsədlə Heydər Əliyevin tapşırığı ilə elmi arayış hazırlanmış, bu sənəd Azərbaycan KP MK Siyasi Bürosunda müzakirə edilərək Ermənistan SSR rəhbərliyinin iddialarının əsassız olması haqqında qərar qəbul edilmiş və həmin qərar keçmiş SSRİ rəhbəri Leonid Brejnevə təqdim olunmuşdur. Heydər Əliyevin atdığı qəti addımlar nəticəsində ermənilərin bu niyyəti baş tutmamışdır. Ümumiyyətlə, Heydər Əliyevin qətiyyətli mövqeyi hər zaman SSRİ rəhbərliyində olan erməni millətçilərini çox narahat etmiş və onların öz çirkin niyyətlərini həyata keçirmələri üçün ciddi bir maneə olmuşdur.

Ümummilli Lider Qarabağın dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Bu, səbəbsiz deyildi. Erməni millətçiləri Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinin ölkəmizin digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu iddia edirdilər. Onların bu niyyətlərinin qarşısını almaqda, Yuxarı Qarabağın Aran Qarabağla və Azərbaycanın digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq böyük rol oynaya bilərdi. Bu baxımdan Ağdam-Xankəndi dəmiryolu çəkildi və 1979-cu il yanvarın 12-də həmin yol Ümummilli Liderin iştirakı ilə istifadəyə verildi. Bu, Heydər Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi sahəsində strateji addımı və böyük tarixi xidməti idi.

Həmin dövrdə Azərbaycanda bütün sahələrdə ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş bir sıra mühüm addımlar atılmışdır. Bu nailiyyətlər o vaxt hakimiyyətdə olan Ümummilli Liderin rəhbərliyi və prinsipiallığı nəticəsində mümkün olmuş və dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın milli maraqlarını uca tutmuşdur.

*Elmi konfransa yekun vuran **Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan ƏLƏKBƏROV** qeyd etdi ki, kadr potensialının formalaşması, bunun üçün insanların bilik və bacarıqlarının artırılması sahəsində ardıcıl fəaliyyət Ulu Öndər Heydər Əliyevin dövlət idarəçilik strategiyasının əsas istiqamətlərindən birini təşkil edirdi. Hələ sovet dövründə milli kadrların yüksək səviyyədə hazırlanması üçün vacib təşəbbüslərlə çıxış edən Ulu Öndər Heydər Əliyev ölkənin müstəqilliyinin bərpasından sonra bu istiqamətdə fəaliyyəti daha da genişləndirdi:*

- Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan elm və texnologiyalara dayanan kadr hazırlığı siyasəti hazırda da davam edir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında davamlı inkişaf edən və inklüziv cəmiyyətin qurulmasının ən müasir istiqaməti olan ESG transformasiya sahəsində xüsusi tədris kursları həyata keçirilir. Ekoloji, sosial və korporativ məsuliyyətli fəaliyyəti nəzərdə tutan bu yeni idarəçilik texnologiyalarının tədrisi Azərbaycan Respublikasında ilk dəfə tətbiq olunur. Bu sahədə biliklər həm ali məktəb tələbələrində, həm də dövlət qulluqçularında formalaşdırılır.

Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan Respublikasının formalaşmasında və inkişafında əvəzsiz xidmətləri olmuşdur. Təbii ki, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin ölkəmizin və xalqımızın inkişafına xidmət edən fəaliyyətini nəinki bir məqalədə, hətta cild-cild kitablarda belə tam əhatə etmək qeyri-mümkündür. Azərbaycan Respublikasında istər ayrı-ayrı elm sahələrinin, istər təhsil, səhiyyə kimi sosial sferaların, istər kənd təsərrüfatı və sənayenin və bütövlükdə dövlətin inkişafı məhz Ümummilli Liderin adı ilə bağlıdır. Bütün bunlar isə Heydər Əliyev ideyalarının daha dərindən öyrənilməsini zəruri edir. Çünki dahi Heydər Əliyev Azərbaycan xalqının xilaskarı olmaqla yanaşı, həm də Azərbaycan dövlətini davamlı inklüziv inkişafa aparan düşünülmüş strategiyanın banisidir.

***"AZƏRBAYCAN"***